# “ARXEOLOGYA”

ixtisası üzrə doktoranturaya qəbul

# PROQRAMI

| | |
|---|---|
| **Elm sahəsi:** | **TARİX** |
| **İxtisas:** | **5505.02 – “ARXEOLOGİYA”** |

**Tərtib etdi: tarix elmləri doktoru Dostiyev Tarix Meyrut oğlu**

Mündərəcat

Ümumi qaydalar ........................................................................................................ 3
I Bölmə. Arxeologiya ixtisası üzrə doktoranturaya qəbul imtahnının hədəfləri və məqsədi, yoxlanıan bacarıqlar........................................................................................................3
II. Qəbul imtahanı proqramının məzmunu
Fəsil 1. Arxeologiya giriş
Fəsil 2. Daş dövrü
Fəsil 3. Paleometal dövrü
Fəsil 4.Dəmir dövrü
Fəsil 5. Qafqaz və Mərkəzi Asiyanın antik dövlətlərinin arxeologiyası
Fəsil 6. Avrasiya və Qafqazın ilk orta əsr arxeoloji abidələri
Fəsil 7.İslam arxeologiyası
IV Bölmə. Tədris-metodik və informasiya təminatı
Ədəbiyyat
V Bölmə. Qiymətləndirmə meyarları
VI Bölmə. Qəbul intahanına hazırlaşmaq üçün nümunəvi suallar

# ÜMUMİ QAYDALAR

## I Bölmə. Arxeologiya ixtisası üzrə doktoranturaya qəbul imtahnının hədəfləri və məqsədi, yoxlanıan bacarıqlar

Arxeologiya elmi bilik sahəsi kimi özünəməxsus mənbələri və tədqiqat üsulları ilə insanı və cəmiyyəti öyrənən elmlər sistemində mühüm yer tutur və tarixi inkişafın ümumi qanunauyğunluqlarını dərk etməsində xüsusi rol oynayır. Xalqımızın ulu keçmişinin və qədim tarixinin, mədəniyyətinin bərpasında, öyrənilməsində arxeoloji mənbələr və arxeoloji tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir.

**Qəbul imtahanının hədəfi**

Elmi tədqiqat işlərinin təşkil və gerçəkləşdirilməsini bacaran yüksək ixtisaslı peşəkar mütəxəssislərin hazırlanması.

**Qəbul imtahanının məqsədləri:**

İddiaçının peşə biliklərinin, müstəqil elmi-tədqiqat işlərinə hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi.

## II Bölmə. İmtahanın prosesində yoxlanan bacarıqlar

Doktoranturaya qəbul proqramı ixtisas fənni üzrə imtahan aşağıdakı **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

Təşkilatçılıq, natiqlik, tənqidi düşüncə, özünə inam, tədqiqat və təhlil etmə bacarıqları

**Ümumi peşəkar bacarıqlar**:

Müasir elmi nailiyyətləri tənqidi təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki vəzifələrin həllində yeni ideyalar irəli sürmək bacarığı

**Peşəkar bacarıqlar:**

- elmi-tədqiqat işlərini gerçəkləşdirmək;
- Arxeoloji materiallar əsasında qədim cəmiyyət və sivilizasiyaların tarix və mədəniyyətinin rekonstruksiyası.

**Tələb olunan bilik, bacarıq və vərdişlər:**

**biliklər:**

– arxeoloji dövrlər və arxeoloji mədəniyyətlər sahəsində dərin biliklərə sahib olmaq;

arxeologiya sahəsində müasir nailiyyətləri, kompleks arxeoloji tədqiqatların gerçəkləşdirilməsinin metodlarını;

– hümanitar elmlər sahəsi üzrə ümumiləşdirilmiş, analitik əsərlərin, ekspert işlərinin görülməsində arxeologiya üzrə elmi nəticələrinin tətbiqinin elmi-nəzəri əsaslarını

**bacarıqlar:**

- elmi tədqiqat fəaliyyəti üçün sistemli elmi dünyagörüşünə əsaslanan kompleks arxeoloji tədqiqatların gerçəkləşdirilməsinin metodikasını;
- hümanitar elmlər sahəsi üzrə ümumiləşdirilmiş, analitik əsərlərin yazılmasında, ekspert işlərinin görülməsində öz elmi-tədqiqatlarının nəticələrindən istifadə etmək.

**vərdişlər:**

- arxeoloji tədqiqatların müasir metodoloji əsaslarının, eləcə də arxeoloji mənbələrin təhlili vərdişi.
- tədqiqat fəaliyyətində tarixi proseslərə şəxsi münasibətini nümayiş etdirmək;
- tarix elmləri sahəsi üzrə ümumiləşdirilmiş, analitik əsərlərin yazılmasında, ekspert işlərinin görülməsində elmi-tədqiqatların nəticələrinin tətbiqi metodlarına.

## II. Qəbul imtahanı proqramının məzmunu

Fəsil 1. Arxeologiya giriş

**1.1. Arxeologiya elminin predmeti və obyekti**

Arxeologiya elminin predmeti, obyekti, məqsəd və vəzifələri. Arxeologiya, onun biliklər sistemində yeri. Arxeoloji mənbələr və arxeoloji abidələr. Arxeologiyada başlıca anlayışlar: mədəni təbəqə, stratiqrafiya, çoxtəbəqəli abidə, dəfn abidəsi və adəti, arxeoloji kompleks (açıq və qapalı), arxeoloji mədəniyyət, mədəni-tarixi birlik və s.

**1.2. Arxeoloji tədqiqat üsulları.**

**1.2.1. Çöl arxeoloji tədqiqat üsulları.**

Arxeoloji kəşfiyyat və onun növləri. Coğrafi İnformasiya Sistemi və onun arxeoloji kəşfiyyat işlərində tətbiqinin əhəmiyyəti. Arxeoloji qazıntı üsulları. Yaşayış yerlərinin arxeoloji qazıntısı üsulları. Stratiqrafik metod. Stratiqrafik şərhdə dörd başlıca prinsip. Təbəqələrin şaquli və üfiqi ardıcıllığı. Arxeoloji tədqiqatlarda stratiqrafiyanın əhəmiyyəti. Müxtəlif tipli qəbir abidələrinin arxeoloji qazıntı metodlarının xüsusiyyətləri. Qayaüstü rəsmlər, bütlər və digər növ arxeoloji abidələrin tədqiqat metodları. Çöl gündəliyi və çöl qeydiyyatı. Çöl tədqiqatlarının sənədləşməsi.

**1.2.2. Kameral-laboratoriya və kabinet tədqiqat üsulları.**

Tipoloji metod və onun əsas prinsipləri. Arxeoloji tədqiqatlarda tipoloji metodun tətbiqi və əhəmiyyəti.

Trasoloji metod. Alətlərin təyinatının və iş xüsusiyyətlərinin müəyyənləşdirilməsinin başlıca prinsipləri. Trasologiyanın müasir problemləri və inkişaf prespektivləri. Ekprementaltrasoloji analizlər. Arxeoloji tədqiqatlarda trasoloji metodun tətbiqinin əhəmiyyəti.

IV dövr geologiyası və arxeologiya. Litoloji, petroqrafik analizlər.

Paleozooloji metod. Osteoloji materialların toplanması metodikası və analiz metodları. Əldə olunan dəlillərin şərhinin xüsusiyyətləri.

Paleoantropoloji metodlar. Paleoantropoloji materialların tədqiqinin əhəmiyyəti və imkanları.

Arxeometriya və arxeoloji tədqiqatlarda onun əhəmiyyəti.

**1.3.. Tarixi və arxeoloji dövrləşmə. Nisbi və mütləq xronologiya.**

Tarixlənmədə təbiət elmlərinin metodlarından istifadə:

radiokarbon, kalium-arqon, uran-qurğuşun, arxeomaqnit, dendroxronologiya.

**1.4. Arxeologiya elminin təşəkkülü və inkişaf mərhələləri**

Arxeologiyanın tarixi. Arxeologiya elminin təşəkkülü və inkişafında erkən mərhələ. Herkulanum və Pompeya şəhərlərinin qazıntıları. İbtidai arxeologiya sahəsində ilk uğurlu kəşflər. Qədim Misir və İkiçayarasının qədim sivilizasiyalarının aşkarlanması. XIX əsrin ortalarında sistemsiz arxeoloji tədqiqatlar aparılması dövrünün sona çatması.

Arxeologiya elminin inkişafında ikinci mərhələ. Arxeoloji qazıntıların planlı, məqsədyönlü, elmi əsaslarla aparılmasına başlanılması. Yaxın Şərq arxeologiyasının müvəffəqiyyətləri: İkiçayarasında, İranda və Kiçik Asiyada arxeoloji kəşflər. Rusiya imperiyasında arxeologiya elminin təşəkkülü və inkişafı.

Azərbaycan arxeologiyasının təşəkkül və inkişaf mərhələləri. Azərbaycan ərazisində ilk arxeoloji tədqiqatlar. Azərbaycanlı ziyalıların - Abbasqulu ağa Bakıxanov, Mirzə Cəfər Topçubaşov və Mirzə Kazım bəyin arxeoloji abidələrin öyrənilməsi üzrə fəaliyyətləri.

V Ümumrusiya arxeoloji qurultayı və onun Qafqazın arxeoloji tədqiqinə təsiri. V.Belk, E.Resler, Jak de Morqanın arxeoloji qazıntıları. Azərbaycanın arxeoloji irsinin qarət olunması.

Azərbaycan Cümhuriyyətinin arxeoloji irsin tədqiqi üzrə fəaliyyəti. Bakı Universiteti nəzdində "Müsəlman Şərqini öyrənən Cəmiyyət"in yaradılması və onun fəaliyyəti. İstiqlal muzeyinin təsis edilməsi.

Sovet hakimiyyətinin ilk illərindən arxeoloji abidələrin tədqiqi, qeydə alınması və qorunmasını həyata keçirən elmi qurumların təşkili: Azərbaycan Dövlət Muzeyi, Azərbaycan Arxeoloji Komitəsi və Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti. İlk milli peşəkar arxeoloqların hazırlanması. XX yüzilliyin 20-30-cu illərində respublika ərazisində aparılan arxeoloji qazıntılar.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşkili və arxeoloji abidələrin tədqiqində yeni mərhələ. XX əsrin ikinci yarısında Azərbaycan arxeologiyasının uğurları.

Müstəqillik illərində Azərbaycanda arxeoloji tədqiqatlar. Azərbaycan arxeologiyasının inkişafına dövlət qayğısı.

### Fəsil 2. Daş dövrü

### 2.1. Daş dövrü və onun inkişaf mərhələləri

Daş dövrü bəşəriyyətin inkişafında ən qədim tarixi-mədəni dövrdür. Homo nəslinin mənşəyi. Antropogenezin antropoloji və arxeoloji meyarları. Antropogenezin mərhələləri.

Daş dövrünün başlıca xüsusiyyətləri. Daş dövrünə aid düşərgələr, yaşayış evləri, dəfn abidələri, ibtidai incəsənətin nümunələri, daş və sümük əmək alətlərinin ümumi səciyyəsi. Daş dövrünün xronologiya və dövrləşməsi.

**Paleolit.** Paleolit dövrləşməsinin əsasları. “Alt paleolit”, “Oldovan”, “Aşel”, “Mustye”, “Üst paleolit” anlayışları. Arxeoloji dövrləşmənin geoloji dövrlərlə əlaqələndirilməsi. Buzlaqlar və buzlaqlararası dövrlər. Paleolitdə insanın təbiətdən asılılığı, bəşəriyyətin inkişafında təbiət və sosial amillər.

**Alt paleolit.** Oldovan (Olduvay) mədəniyyəti. Olduvay, Koobi-Fora və Afrikanın digər düşərgələri. Onların xronoloji çərçivəsi. Daş işləmə texnikası və əsas əmək alətləri. Afrika qitəsindən kənarda Oldovan mədəniyyəti abidələri (Yaxın Şərq, Pakistan, Çin, Yava adası, Qafqaz, Rusiya, İspaniya). Qafqazın Oldovan dövrü paleolit düşərgələri. Azıx mağara düşərgəsi. Onun alt mədəni təbəqələri (Quruçay mədəniyyəti). Əmək alətləri. Çopperlər. Fauna qalıqları. Düşərgə sakinlərinin təsərrüfat məşğuliyyəti. Quruçay mədəniyyətinin xronoloji çərçivəsi. Dmanisi paleolit düşərgəsi. Homo erektus. Onun əmək alətləri. Şimal-Şərqi Qafqazın Oldovan mədəniyyəti abidələri.

**Aşel mədəniyyəti.** Dövrün ümumi səciyyəsi. Əl çapacağı, bifaslar, kliverlər, nizə ucluqları və s. İbtidai insanların məskunlaşma məkanının genişlənməsi. Yaxın Şərqin və Qafqazın başlıca Aşel dövrü düşərgələri: Übeydiyyə (İsrail), Azərbaycanda Azıx mağara düşərgəsi, Ermənistanda Qaraxaç düşərgəsi, Cənubi Osetiyada Kudaro, Dağıstanda Darvaqçay körfəz düşərgələri. İlk evtikmə vərdişlərinin meydana gəlməsi. Azıxantrop. Aşel dövrü insanlarının təsərrüfatı, sosial təşkili.

**Orta paleolit.** Mustye mədəniyyəti**.** Dövrün ümumi səciyyəsi. Mustye mədəniyyəti. Daşişləmə texnikasının təkmilləşməsi. Daş alətlərin tipləri. Sümük alətlər. Yaxın və Orta Şərqin başlıca mustye dövrü abidələri. Tağlar, Damcılı, Zar, Buzeyir, Qazma mağaraları.Qafqazın mustye dövrü düşərgələri. Azərbaycanın mustye dövrü abidələri. Neandertal tipli adamların məşğuliyyəti. Dəfn mərasimi və ilkin dini təsəvvürlərin formalaşmağa başlaması. İncəsənətin rüşeymləri.

**Üst paleolit.** Xronoloji çərçivəsi. Dövrün paleocoğrafi şəraiti. Məhsuldar qüvvələrin inkişafı. Daşişləmə texnikasında yeni nailiyyətlər. Əmək alətlərinin tipləri. Quraşdırma alətlərin tətbiqinin genişləndirilməsi. Ov silahlarının və üsullarının təkmilləşməsi. Balıqçılığın erkən çağı. Ev tipləri.

Yaxın və Orta Şərqin son paleolit düşərgələri. Azərbaycanın Üst Paleolit düşərgələri. Damcılı, Zar, Yataq yeri, Hişkədərə düşərgələri.Qafqazın son paleolit düşərgələri. Qafqazın son paleolit mədəniyyətlərinin Yaxın Şərqin paleolit mədəniyyətləri ilə yaxınlığı. Paleolit incəsənəti. Üst paleolitdə abstrak təsəvvürlərin inkişafı və riyazi anlayışların meydana çıxması. Tarixi inkişafın sürətlənməsi və onun səbəbləri.

### 2.2. Mezolit

"Epipaleolit", "holosen paleoliti" və "mezolit" terminlərinin şərhi. Mezolitin xronoloji çərçivəsi. Holosen təbii-coğrafi şəraitin xüsusiyyətləri. Müasir landşaft – iqlim zonalarının formalaşması. İnsanın yeni təbii-coğrafi şəraitə uyğunlaşması. Mezolit dövründə əmək alətlərinin təkmilləşdirilməsi. Mikrolitlər texnikasının tətbiqinin genişlənməsi. Mikrolitlər. Sümük alətlərinin çeşidinin artması. Ovçuluq və balıqçılıqda ixtisaslaşma. Nəqliyyat. Qafqazın mezolit dövrü abidələri. Qobustan düşərgələri. Natufian mədəniyyəti. Mureybit yaşayış yeri. Mənimsəmə təsərrüfat formasından istehsal təsərrüfatına keçidin başlanğıcı. Göbəklitəpə məbəd kompleksi və onun arxeoloji tədqiqinin nəticələri. Mezolit dövrü qəbir abidələri və dəfn adəti. Firuz düşərgəsində torpaq qəbir və dəfn adəti. Mezolit incəsənəti. Qobustan qayaüstü rəsmləri.

### 2.3. Neolit

"Neolit" istilahı. Keramikalı və keramikasız Neolit dövrü. Neolit dövrünün xronoloji çərçivəsi. Başlıca əmək alətləri. İstehsal təsərrüfatı formaları: əkincilik və heyvandarlıq. Toxuculuğun yayılması. Yaşayış məskənlərinin tipləri. Möhrə, çiy kərpic memarlığının təşəkkül tapması. "Neolit inqilabı" anlayışı. Ön Asiyada istehsal təsərrüfatına əsaslanan mədəniyyətlərin formalaşması. Erkən əkinçi mədəniyyətlərinin mərkəzləri: - İyerixon arxeoloji kompleksləri, Hacılar, Çayönü, Çatal-Höyuk yaşayış yerləri. Carmo yaşayış yeri. Ceytun yaşayış yeri. Qafqazın neolit dövrü abidələri. Azərbaycanın erkən əkinçilik mədəniyyətləri və abidələri: I Kültəpə, Hacıəlamxanlı, Həsənsu, Göytəpə, İlanlıtəpə, Kamiltəpə, Hacı-Firuz və digər yaşayış yerləri. Gürcüstanın neolit yaşayış yerləri - I Aruxlo, Şulavisqora, İmirisqora və s. Ermənistanda Xatunarx (Aknaşen) və Mahaltəpə (Arataşen) yaşayış yerləri. Şimali Qafqazın neoliti problemi – Çox yaşayış yeri. İstehsal təsərrüfatına keçidin bəşər tarixində əhəmiyyəti. Qəbir abidələri və dəfn adəti. Neolit incəsənəti.

## Fəsil 3. Paleometal dövrü

### 3.1. Xalkolit

Paleometal dövrünün ümumi səciyyəsi. Bəşər mədəniyyətində və cəmiyyətin inkişafında metalın əhəmiyyəti. "Eneolit" və "Xalkolit" anlayışları. Xalkolit (Eneolit) paleometal dövrünün erkən mərhələsi kimi. Ən qədim metal alət və əşyalar. Metallurgiya bölgələri. Metallurgiya ocağı və

metal emalı ocağı anlayışları. Metal alətlərin tətbiqinin əkinçilik və heyvandarlıq təsərrüfatlarının, nəqliyyatın inkişafına təsiri. Təkərin kəşfi. Mübadilənin genişlənməsi.

İstehsal təsərrüfatı məkanının genişlənməsi və onun inkişafında sıçrayış. İkiçayarasının oturaq əkinçi-maldar icmalarının mədəniyyətləri: Monumental binaların inşaatı. Saxsı məmulatı. Dulus çarxından istifadə. Ticarət əlaqələri. Cəmiyyətin ideologiyasında dəyişikliklər. İctimai münasibətlər. İlkin sivilizasiyanın əsaslarının formalaşması. Bəşər cəmiyyətinin qeyri-bərabər inkişafı.

Mesopotamiya və Anadolunun xalkolit abidələri: Hassun, Samirə, Halaf və Erkən Eredu. Übeyd mədəniyyəti. Protoşəhərlərin meydana gəlməsi. Coba Höyük, Kurban Höyük, Beycesultan, Təpəcik və s. İranın əkinçi-maldar tayfalarının eneolit mədəniyyətlərinin xüsusiyyətləri. Mərkəzi Asiyada Anau-Namazqa mədəniyyətləri.

Azərbaycan və Qafqazın xalkolit dövrü abidələri. Erkən əkinçi-maldarların yaşayış yerləri və onların arxeoloji tədqiqi. Azərbaycanın Erkən və Orta xalkolit (Eneolit) dövrü abidələri: . Dalma Təpə, I Kültəpə, Naxçıvantəpə, Culfa Kültəpəsi, Pijdəli Təpə, yaşayış yerləri. Gəncə-Qazax və Qarabağ abidələr qrupu. Muğan abidələri. Arxeoloji komplekslərin səciyyəsi. Ağrıdağ düzənliyinin xalkolit (eneolit) yaşayış yerləri- Texut, I Adablur. Dağıstanda Qinçi yaşayış yeri.

Azərbaycanın son xalkolit (eneolit) mədəniyyətləri. Ovçulartəpə mədəniyyətinin başlıca abidələri: Ovçulartəpə, Zirincli və digər yaşayış yerləri. Ovçulartəpənin memarlığı. Ovçulartəpənin keramikası. Ovçulartəpəsində əkinçilik, maldarlıq, ovçuluq. Ovçulartəpənin obsidian məmulatı. Leylatəpə mədəniyyəti və onun başlıca abidələri: Leylatəpə. Böyük Kəsik, Poylu, Qalayeri yaşayış yerləri. Soyuqbulaq kurqanları. Leylatəpə mədəniyyətində memarlıq. Leylatəpə mədəniyyətinin keramikası. Leylatəpə mədəniyyətinin mənşəyi. Ön Asiya və Anadolu mədəniyyətləri ilə əlaqələr. Sioni Mədəniyyəti.

### 3.2. Tunc dövrü

Tuncun kəşfi və metallurgiya əyalətləri. Qafqaz tunc metallurgiyasının mərkəzi kimi. Erkən tunc dövründə əlvan metallurqiyada innovasiyalar. Qəliblərin təkmilləşməsi. Mərgümüşlü tuncun xüsusiyyətləri. Əmək alətləri və silahlar. İstehsal təsərrüfatının inkişafında nailiyyətlər. Şəhərlərin meydana gəlməsi, süni suvarmaya əsaslanan əkinçilik və sənətkarlığın inkişafı. Şumer mədəniyyəti. Ur qazıntıları. Uruk mədəniyyəti. Cəmdət Nəsr mədəniyyəti.

Qərbi və Mərkəzi Anadolunun tunc dövrü. Şəhər tipli yaşayış məskənləri- Troya, Qumtəpə, Bəycəsultan, Kültəpə. Qəbir abidələri-Alaca Hüyuk. Egey mədəniyyəti. Onun mərhələləri. Şəhərlər. İnşaat sənəti və memarlıq. Təsərrüfat. Sənətkarlıq. Ticarət. Sərdabələr. Dini etiqadlar. İncəsənət.

**Kür –Araz mədəni-tarixi birliyi.** Kür-Araz mədəniyətinin yayılma məkanı. Məhəlli variantlar. Azərbaycanda Kür-Araz mədəniyyətinin başlıca abidələri: I Kültəpə. II Kültəpə. I

Maxta Kültəpəsi, Qaraköpəktəpə, Mingəçevir. Baba Dərviş. Sərkərtəpə, Yanıqtəpə, Göytəpə, Culfa Kültəpəsi yaşayış yerləri. Yaşayış məskənlərinin topoqrafik xüsusiyyətləri. Yaşayış evləri və təsərrüfat tikililəri. İnşaat texnikası və inşaat materialları. Əmək alətləri və silahlar. Kür-Araz mədəniyyəti daşıyıcılarının təsərrüfat məşğuliyyəti. Saxsı məmulatının səciyyəsi. İqtisadi-ictimai münasibətlər. Yaşayış məskənlərindən kənarda qəbirstanlıqların meydana gəlməsi. İlk tunc dövrü kurqanları. Gürcüstanın Erkən Tunc dövrü abidələri: Amiranisqora. Xizanaantqora. Kvaçxelebi. Ağrı vadisinin Kür-Araz mədəniyyəti abidələri. Kür–Araz mədəniyyəti daşıyıcılarının dini görüşləri. İncəsənət. Azərbaycanın qayaüstü rəsmləri: Qobustan, Gəmiqaya, Abşeron, Kəlbəcər qayaüstü təsvirləri.

**Şimali Qafqazda Maykop mədəniyyəti.** Xronoloji çərçivəsi və inkişaf mərhələri. Kurqanlar. Daş sərdabələr və dolmenlər. Yaşayış yerləri. Təsərrüfat. Maykop mədəniyyətinin mənşəyi məsələsi.

**Orta tunc dövrünün** ümumi səciyyəsi. Metallurgiyada yeniliklər: mürəkkəb quruluşlu qəliblər, qalaylı, çoxkomponentli tuncun istehsalı. Tunc metallurgiyasının coşqun inkişafı və metal məmulatının çeşidinin genişlənməsi. Şimali Qafqaz mədəniyyəti. Onun yayılma məkanı və xronoloji çərçivəsi. Trialeti mədəniyyəti. Yayılma arealı və inkişaf mərhələləri. Trialeti kurqanlarının ümumi səciyyəsi. Yaşayış yerləri. Trialeti keramikasının xüsusiyyətləri. Trialeti mədəniyyətinə aid boyalı keramikanın mənşəyi.

**Azərbaycan orta tunc dövründə**. Yaşayış yerlərinin səciyyəsi: qala tipli, kənd tipli və şəhər tipli yaşayış yerləri. Azərbaycanda protoşəhər mədəniyyəti: II Kültəpə qazıntıları. İlkin şəhərlərin memarlığı. Orta Tunc dövründə Boyalı qablar mədəniyyətinin yayılma arealı. Boyalı qablar mədəniyyətinin mərhələləri. Monoxrom boyalı qablar. Polixrom boyalı qablar. Boyalı qablar mədəniyyətinə aid yaşayış yerləri. Boyalı qablar mədəniyyətinin mənşəyi məsələsi. Boyalı qablar mədəniyyətinin xronologiyası. Urmiya hövzəsinin Orta Tunc dövrü abidələri. Göytəpə. Haftavantəpə. Qordlartəpə. Dinkatəpə. Orta tunc dövrü tayfalarının təsərrüfat məşğuliyyəti. Qarabağ mədəniyyətinin yayılma arealı. Qarabağ mədəniyyətinə aid yaşayış yerləri və qəbir abidələri. Rəsultəpə. Çinartəpə. Qaraköpəktəpə. Xantəpə. Günəştəpə. Basmanaxışlı keramika. Orta tunc dövrünün kurqan qrupları. Azərbaycanın iqtisadi-mədəni əlaqələrinin genişlənməsi.

Mərkəzi Asiyanın tunc dövrü. Orta Asiyada protoşəhər sivilizasiyası. Altıntəpə, Namazqatəpə. Onların topoqrafiyası və plan quruluşu. İnşaat texnikası və memarlıq. Metallurgiya və metal emalı. Dulusçuluq. Qəbir abidələri. Möhürlər. Qədim Şərq mədəniyyətləri ilə əlaqə.

**Qafqazın Son tunc dövrü arxeoloji mədəniyətləri**: Koban mədəniyyəti. Kolxida mədəniyyəti. Xocalı-Gədəbəy mədəniyyəti. Naxçıvan mədəniyyəti. Talış-Muğan mədəniyəti.

**Fəsıl 4. Dəmır dövrü**

**4.1. Dəmir dövrünün ümumi səciyyəsi**

Dəmir dövrü bəşər tarixinin növbəti, daha yüksək mədəni-texniki mərhələsidir. Dəmir dövrünün erkən çağı. İlk dəmir məmulatı. Dəmirin filizdən alınması texnologiyasının kəşfi və əhəmiyyəti. Çuqun və poladın istehsalı məsələsinə dair. Əmək alətlərinin və silahların istehsalında dəmirdən istifadənin genişlənməsi. Dəmirin kəşfinin tarixi inkişafa təsiri. Sosial-iqtisadi və mədəni nailiyyətlər.

**4.2. Anadolu, İran və Azərbaycan erkən dəmir dövründə**

Azərbaycanın Erkən Dəmir dövrü yaşayış yerləri. Siklop tikililəri. Urartu. Şəhərlər: Tuşpa van (Toprakkala), Zernekitepe, Argiştixinili, Teyşabani. Çavuştəpə. İstehkamlar. Saraylar. Məbədlər. Yaşayış yerləri. İnşaat texnikası. Təsərrüfat. Sənətkarlıq və ticarət. Qəbir abidələri. Incəsənət nümunələri.

Urartuluların Azərbaycana yürüşlərinə aid yazılı abidələr. İlandağ və Sisian kitabələri. Oğlanqala yaşayış yeri Naxçıvanda yerli siyasi vahidin mərkəzi kimi. Etiuni tayfa birliyi. Manna dövləti. Şəhərlər. “Dayson layihəsi”- Həsənli qazıntıları. Həsənlitəpənin stratiqrafiyası. V-III dövr təbəqələri. İstehkam qalıqları. Tikililər və onların səciyyəsi: planı, konstruksiyası, daxili sahmanı. Saray kompleksi. Keramikanın səciyyəsi. Metal məmulatı. Həsənli nekropolu. Manna dövlətinin Aşşur və və Urartu dövlətləri ilə qarşılıqlı münasibətlərinin arxeoloji abidələrdə əksi.

İnşaat texnikası. Təsərrüfat. Saxsı məmulatı. Qəbir abidələri və dəfn adətləri.

**İran.** Dəmir dövrünün mərhələləri. Yaşayış məskənlərinin tipoloji təsnifatı. Dəmir dövrünün şəhərləri-Pasarqad, Persopol, Suz. Saraylar, ictimai və dini binalar. İnşaat texnikası və memarlıq. Memarlıq bəzəyi. Təsərrüfat. Sənətkarlıq və ticarət. Qəbir abidələri. Dini etiqadlar. İncəsənət. Azərbaycanda əhəməni dövrü saray kompleksləri.

**4.3. Skif –Sibir dünyası mədəni məkanı**

Kimmerlər: yazılı mənbə məlumatı və arxeoloji irs. Arxeologiya elmində kimmerlər problemi. Təsərrüfat. Qəbir abidələrinin səciyyəsi. Silahlar və at əsləhəsi. Keramika və metal qablar. Bəzək əşyaları. Bütlər.

Skif –Sibir dünyası mədəni məkanının təşəkkülünü şərtləndirən amillər, areal və xronoloji çərçivəsi, ümumi əlamətlər (skif-sibir dünyası üçün səciyyəvi olan üçlük - triada). Etnik mənsubiyyət məsələsi.

Skif mədəniyyəti və onun mənşəyi. Skiflərin Ön Asiyaya yürüşləri. Ön Asiyada Skif şahlığı. Skif ölkəsi və onun sərhədləri. Avrasiya düzündə atçılıq və köçəri maldarlığın inkişafı. Skiflərdə heyvani üslubun özəllikləri.

Skiflərdə metallurgiya və onun texnologiyası. Kamensk və digər şəhərgahlar. Skif hökmdar kurqanları (Kül-Oba, Soloxa, Çertomlıq, Tolstaya moqila və s.). Skif maddi mədəniyyəti-silahlar, at

ləvazimatı, arabalar, keramika və metal qablar, bəzək əşyaları. Baş geyimləri. Güzgülər. Skif incəsənəti: skif heyvani üslubu fenomeni. Daş heykəllər. Dini etiqadlar.

Sak-massaget mədəniyyəti. Yayılma məkanı və xronoloji çərçivəsi. Başlıca abidələr. Aralyanı saklar. Cənubi Tagisken və Uyqarak qəbir abidələri. Dəfn adəti, silahlar, at əsləhəsi, incəsənətdə heyvani üslub.

Yeddisu qəbir abidələri: Besşatır kurqanları. 16 saylı İssık kurqanı. Tasmolin mədəniyyəti. Aralyanı və Xarəzm sakları və onların qarşılıqlı əlaqələri. Cənubi Sibir mədəniyyətləri. Pazırıq mədəniyyəti. Yayılma məkanı və xronoloji çərçivəsi. Tayfa, qəbilə başçılarının qəbirləri: Pazırıq kurqanı və Dağlıq Altayın digər kurqanları. Onların özəllikləri.

Hüyuk mədəniyyəti. Dövrü və yayılma arealı. Arjan 1 və Arjan 2 hökmdar kurqanları.

Taqar mədəniyyəti. Arealı və xronoloji çərçivəsi. Təsərrüfat. Qəbir abidələri və onların formaları. Qəbir avadanlığı, silahlar, at əsləhəsi, əmək alətləri, keramika, bəzək əşyaları. İncəsənətdə heyvani üslub.

Sarmat dövrü. Dövrün ümumi səciyyəsi. Sarmat arxeoloji mədəniyyətinin mənşəyi, yayılma məkanı və xronoloji çərçivəsi. Təsərrüfat. Qəbir abidələri. Dəfn adətləri. Qəbilə münasibətləri qalıqlarının qorunub saxlanılması. Sarmatların silahları. Hunlar və sarmatlar.

Hun abidələri: yaşayış yerləri və qəbir abidələri. Maddi mədəniyyətin başlıca xüsusiyyətləri. Silahlarda yeniliklər. Cənubi Sibirdə Taştık mədəniyyəti. Areal, xronoloji çərçivə və etnik mənsubiyyət. Təsərrüfat. Qəbir abidələri. Dəfn adətləri. Silahlar, at əsləhəsi, geyim, keramika və metal qablar.

## FƏSIL 5. QAFQAZ VƏ MƏRKƏZİ ASİYANIN ANTİK DÖVLƏTLƏRİNİN ARXEOLOGİYASI

### 5.1. Qafqaz antik dövlətləri

Antik arxeologiya anlayışı. Yunan və Roma sivilizasiyasının ümumi səciyyəsi. Qafqaz və Antik dünya.

**Kolxida**. Yaşayış məskənləri. Təsərrüfat. Vani. Məbədlər. Metal məmulatı. Saxsı məmulatı. Yunan şəhərləri ilə ticarət əlaqələri. Kolxidada Roma qalaları.

İberiya. Yaşayış məskənləri. Armazi, onun qalası. Saray kompleksi. Yaşayış evləri. Saxsı məmulatı. Qəbir abidələri.

**Ermənistan**. Yaşayış məskənləri. Qarni. Onun qalası, saray, məbədlər. Sənətkarlıq. Qəbir abidələri.

**Albaniya**. Sərhədləri. Yaşayış yerləri: şəhərlər, onların topoqrafiyası, plan quruluşu. Qəbələ, Xınıslı, Qalatəpə, Dərbənd və s. Kənd tipli yaşayış yerləri. Tikililər: yaşayış evləri, ictimai - dini binalar. İnşaat materialları. İnşaat texnikası. Təsərrüfat: sənətkarlıq. əmək alətləri. Silahlar. Zireh

geyimlər. Saxsı məmulatı. Qliptika. Bəzəklər. Sikkələr. Ticarət. Qəbir abidərinin təsnifatı. və dəfn adətləri.

**Atropatena**. Sərhədləri. Yaşayış yerləri: Qaleh Zohak. Onun topoqrafiyası, plan quruluşu. Mil düzündə Təzəkənd şəhər yeri. Oğlanqala Antik dövrdə. İstehkamlar-Qala Sasan, Qala Novduz, Adsız qala və s. Tikililər. İnşaat texnikası. Memarlıq. Qaleh Zohakda saray kompleksi. İnşaat materialları. İnşaat ünsürləri. İnşaat üslubları. Bədii tərtibat. Təsərrüfat. Sənətkarlıq. Əmək alətləri. Silahlar. Keramikanın səciyyəsi. Bəzəklər. Qəbir abidələri. Dəfn adətləri.

**5.2.Mərkəzi Asiyanın antik dövlətləri**.

Regionun əkinçilik mədəniyyətinə əsaslanan başlıca mədəni-tarixi vilayətləri:

Parfiya. Yaşayış məskənləri. Nisa: istehkamları, saray-məbəd kompleksi, heykəllər, ritonlar, yazı. Qəbir abidələri.

Soqd. Yaşayış məskənləri. Marakanda – Afrasiab şəhər yeri. Marakanda İpək yolunda mühüm məntəqə kimi.

Xarəzm. Yaşayış məskənləri. Canbasqala, Köy-Krılqanqala və Topraqqala.

**5.3.Böyük İpək yolu**

Böyük İpək yolu Şərq və Qərb xalqlarının iqtisadi və mədəni əlaqələrini təmin edən beynəlxalq ticarət magistralı kimi. Başlıca ticarət magistralları. İpək yolunun əsas ticarət mərkəzləri.

FƏSIL 6. AVRASİYA VƏ QAFQAZIN İLK ORTA ƏSR ARXEOLOJİ ABİDƏLƏRİ

**6.1. "Xalqların Böyük köçü" dövrü və Avrasiyanın arxeoloji abidələri**

Dövrün etnik-mədəni proseslərinin səciyyəsi. Hunların Şərqi və Mərkəzi Avropada məskunlaşması. Hun qəbir abidələri. Hunlar Qafqazda. Hun-sarmat incəsənəti. Avar və bolqarlar Şərqi Avropada. Xəzər xaqanlığının arxeologiyası. Saltovo-Mayatsk mədəniyyəti. Etnik mənsubiyyəti. Yaşayış yerlərinin tipləri. Təsərrüfat. Maddi mədəniyyətin başlıca kateqoriyaları. Qəbir abidələri və dəfn adətləri.

**6.2.** Cənubi Qafqaz. Etnik-mədəni proseslər. Xristianlığın yayılması. Kiş məbədi və onun arxeoloji tədqiqi.

**6.3. Albaniya**

Şəhərlər: Qəbələ, Bərdə, Şamaxı, Dərbənd, Torpaqala. Mingəçevir qazıntıları: 2 və 3 saylı yaşayış yerləri. Qəsrli yaşayış yerləri: Sandıqtəpə, Yaqubboba və başqaları. Albaniyanın müdafiə sədləri: Beşbarmaq, Gil-gilçay və Dərbənd sədləri. Tikililər. İnşaat texnikası. Memarlıq. Xristian abidələri. Təsərrüfat. Sənətkarlıq. Ticarət. Keramika. Torevtika. Qliptika. Bəzəklər. Qəbir tipləri və dəfn adəti. Daş bütlər.

Atropatena. Yaşayış yerləri. Təxti-Süleyman qazıntıları. Zərdüştlüyün baş məbədinin arxeoloji tədqiqi. Keramika. Qəbir tipləri və dəfn adəti.

## FƏSIL 7. **İSLAM ARXEOLOGIYASI**

### 7.1. **7.1.Islam arxeologiyası anlayışı**.

Islamın zühuru və yayılması. İslam arxeologiyasının predmeti və tədqiqat obyektləri. İslam arxeologiyasının coğrafiyası və xronologiyası (erkən islam dövrü, klassik islam dövrü, son islam dövrü). Müsəlman təqvimi. İslam mədəniyyətinin əsasları. Maddi-mədəniyyətdə ənənə və innovasiya.

### **7.2. Yaxın Şərqin müsəlman şəhərləri və onların arxeoloji tədqiqi**

Urbanizasiya proseslərinin geniş vüsət alması. Müsəlman şəhərləri: Bağdad, Samirə, Fustat. Şəhərlərin topoqrafiyası, plan quruluşu. İstehkamlar. İctimai və dini binaların tipləri. Yaşayış evləri. İnşaat texnikası. Şəhər abadlığı problemi. Sənətkarlıq.Ticarət. Sikkələr.

### **7.3. Azərbaycanda İslam mədəniyyəti abidələrinin arxeoloji tədqiqi**

